

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 165 (23.807)

9 sentyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Payız-qış mövsümünə hazırlıqla bağlı vəzifələr müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib.***

Tədbirdə çıxış edən nazir Nicat Babayev bildirib ki, avqust ayının 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə nazirliyin qarşısına bir sıra mühüm vəzifələr qoyulub. Həmin vəzifələrə müvafiq olaraq payız-qış mövsümündə nazirliyin tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin qış mövsümünə hazırlığı ilə bağlı tədbirlər görülməsi, hərbi hissələr üçün isti geyimlərin toxunması işinin bu il də davam etdirilməsi barədə bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqların icrası ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qarşıda duran vəzifələr müəyyənləşdirilib, bununla əlaqədar Tədbirlər planı təsdiq olunub və nazirlik daxilində komissiya yaradılıb.

Bildirilib ki, ötən ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar sağlamlıq imkanları məhdud qadınlar tərəfindən toxunmuş 4100 cüt corab, 3000 boyunluq, 920 şərf və 1400 jilet haqqı ödənilməklə təhvil alınaraq hərbi hissələrə verilmişdir. Həmçinin Fövqəladə Hallar Nazirliyi ilə birgə muxtar respublikada fəaliyyət göstərən 770 müəssisənin qazanxanalarında işləyən mövsümi işçilər üçün maarifləndirmə tədbirləri icra olunmuşdur. Bununla yanaşı, peşə təhsilinə malik olmayan, işaxtaran kimi qeydiyyata alınmış şəxslərin vakant iş yerlərinə göndərilməsi məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti peşəsi üzrə təşkil olunmuş 8 kursa 140, cəzaçəkmə müəssisəsində təşkil edilmiş eyniadlı kursa 12, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər ixtisasartırma kursuna isə 21 nəfər cəlb edilmişdir. Mövsümi hazırlıqlarla əlaqədar sosial könüllülərin iştirakı ilə muxtar respublikanın bütün şəhər və rayonlarında sosial xidmətə qəbul edilmiş tənha ahıllara və sağlamlıq imkanları məhdud şəxslərə evlərində baş çəkilmiş, hava şəraiti ilə əlaqədar ehtiyaclarına uyğun mövsümi ləvazimatlar təqdim olunmuşdur. Bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin payız-qış mövsümünə hazırlığı ilə bağlı zəruri tədbirlər görülmüş, oradakı qazanxana sistemlərində yeni suqızdırıcı avadanlıqlar quraşdırılmışdır.

Qeyd olunub ki, görülən bu işlərlə yanaşı, cari il ərzində də nazirlik və struktur təşkilatlarında qazanxanaların yoxlanılması, istilik sistemlərinin qışa hazır vəziyyətə gətirilməsi və aşkar olunan çatışmazlıqların aradan qaldırılması, xidməti avtomobillərin payız-qış mövsümünə hazır vəziyyətə gətirilərək yoxlanışa hazırlanması və digər zəruri tədbirlərin icrası nəzarətdə saxlanılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib, payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı görüləcək işlərin müzakirəsi aparılıb.

* * *

Naxçıvan Muxtar Respublikası Baytarlıq Xidmətində keçirilən tədbiri giriş sözü ilə xidmətin rəisi Vəli Novruzov açaraq bildirib ki, 28 avqust tarixdə keçirilmiş müşavirədə muxtar respublika rəhbəri Dövlət Baytarlıq Xidmətinə heyvandarlıq, quşçuluq və arıçılıq təsərrüfatlarının qışlamaya hazırlanması, mövsümə uyğun baytarlıq nəzarəti tədbirlərinin görülməsi, torpaq mülkiyyətçiləri və fermerlərin maarifləndirilməsi ilə bağlı bir sıra tapşırıqlar vermişdir. O cümlədən muxtar respublikada mövcud olan bütün növ ev heyvanlarının sağlamlığının qorunması, istehsal olunan heyvandarlıq məhsullarının keyfiyyətinin yüksəldilməsi, zoonoz xəstəliklər də daxil olmaqla, heyvanlarda xəstəliklərin zamanında aşkar edilməsi, diaqnozun düzgün və vaxtında təyin olunması, müalicə və profilaktik tədbirlərinin yubadılmadan həyata keçirilməsi əsas şərtdir. Ona görə də muxtar respublika üzrə ərzaq ehtiyatının artırılması və təhlükəsizliyinin təmin edilməsində xüsusi çəkiyə malik baytarlıq xidməti bu il də payız-qış mövsümündə əhalinin etibarlı heyvandarlıq məhsulları ilə təmin olunması məqsədilə tədbirləri davam etdirir.



Qeyd olunub ki, payız-qış mövsümünün gəlməsi ilə əlaqədar yaylaqlardan oba köçündən sonra və aran yerlərdə, ümumilikdə, mal-qaranın saxlandığı tövlələrdə, yataq yerlərində baytar sanitariya işinin əsas göstəricilərindən hesab olunan dezinfeksiya, dezinseksiya və dezakarizasiya tədbirlərinin vaxtında həyata keçirilməsi öncədən infeksion və invazion xəstəliklərin yayılmasının qarşısını alır. Ona görə də qışlama binalarına köç başlanmazdan əvvəl tövlələrin təmir olunması, divarların suvanması, ağardılması və digər təmizlik işləri həyata keçirilməlidir. Ona görə də mütəmadi olaraq sahibkarlarla tövsiyə xarakterli söhbətlər aparılmalı və onlara yaxından köməklik göstərilməlidir.

Vurğulanıb ki, payız-qış mövsümü ilə əlaqədar olaraq tələbata uyğun yem bazasının toplanması, tədarük olunmuş yemin açıq havada saxlanılması, yağış və qar suyundan xarab olmasının qarşısının alınması üçün qapalı yerlərdə və ya polietilen vasitəsilə mühafizəsi, heyvanlar yemləndirilməzdən əvvəl yemlərin doğranması, ehtiyac olarsa, isladılması, yemin içərisindən yad cisimlərin təmizlənməsi sahibkarlara tövsiyə olunmalıdır. Çünki bu amillər də mal-qaranın sağlamlığının qorunmasına böyük təsir göstərir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

***Avqust ayında Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən müxtəlif istiqamətlər üzrə imtahanların keçirilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib.***

## İmtahanların qrafik üzrə keçirilməsi davam edib



2-16 avqust tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqənin test imtahanları keçirilib. 214 vakant vəzifənin çıxarıldığı budəfəki müsabiqəyə indiyə qədər bu istiqamətdə keçirilmiş imtahanlar üzrə ən çox – 858 namizəd müraciət edib. Müsabiqədə daha çox qeydiyyat Şərur (225), Ordubad (161) və Culfa (121) rayonları üzrə olub. Ayrı-ayrı ixtisaslara nəzər saldıqda isə ən sıx müsabiqə vəziyyəti ibtidai sinif (210), riyaziyyat (113), Azərbaycan dili və ədəbiyyat (94), tarix (92) və ingilis dili (86) müəllimliyi üzrə qeydə alınıb. Müsabiqənin nəticələrinə görə 171 vəzifənin tutulması üçün imtahanlarda iştirak edən 829 namizəddən 134 vəzifə üzrə 493 namizəd müvafiq keçid balını toplayıb. 37 vəzifə üzrə heç bir namizəd keçid balını toplaya bilməyib. 29 nəfər isə imtahanlarda iştirak etməyib. 43 vəzifənin tutulması üçün müraciət edən olmayıb. Müsabiqədə iştirak edənlərlə müvəffəqiyyət qazananların say nisbətində ən yüksək nəticələri isə 83 faizlə Babək rayonu, 70 faizlə Naxçıvan şəhəri, 69 faizlə Culfa və 58 faizlə Ordubad rayonlarından müraciət edən namizədlər göstərib.

"Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının aparılması qaydaları"na uyğun olaraq vakant vəzifənin tutulması üçün müraciət etmiş namizədlər arasında keçid balını toplamaqla, ən yüksək nəticə göstərmiş şəxs müvafiq vəzifəyə təyin olunacaq.

Avqust ayında Dövlət İmtahan Mərkəzi tərəfindən müəllimlərin dövlət musiqi təhsili müəssisələrində, Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzində, digər dövlət qurumlarında, dövlət teleradio və mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqələrin sənəd qəbulu başa çatıb, eyni zamanda dövlət ümumi təhsil müəssisələrində vakant vəzifələrə işə qəbul üçün müsabiqə elan olunub. Elan edilmiş müsabiqə üzrə sənəd qəbulu davam edir.

Avqust ayında mərkəz tərəfindən dövlət qulluğu sahəsində təşkil olunmuş hazırlıq kurslarında 70, müəllimlərin sertifikasiya imtahanları üçün hazırlıq kurslarında 360 nəfər olmaqla, ümumilikdə, 430 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Əhalinin təbii qazla təminatı diqqətdə saxlanılır



Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.

Ötən ay muxtar respublikanın şəhər və rayonlarından daxil olan müraciətlərə əsasən 91 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 90-ı əhali, 1-i qeyri-əhali abonentdir.

Hesabat dövründə Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinə 104 nömrəli, 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 920 çağırış daxil olmuşdur.

Ötən ay muxtar respublikanın qaz şəbəkəsində 696 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq bu sızmalar aradan qaldırılmış, ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə edilmişdir.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Yaşayış məntəqəsi müasir görkəmə qovuşur

*Son illər Ordubad rayonunda həyata keçirilən tikinti-quruculuq tədbirləri bu qədim yurd yerinə müasirlik bəxş edib. Hər il bölgənin müxtəlif ünvanlarında reallaşan belə tədbirləri rayon sakinləri onlara göstərilən qayğı kimi dəyərləndirirlər.*





Məlumat üçün bildirək ki, cari ildə rayonda infrastruktur quruculuğu tədbirləri çərçivəsində ilin ilk altı ayı ərzində bütün maliyyə mənbələrindən əsas kapitala 30 milyon 880 min 100 manat dəyərində vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri 30 milyon 83 min 500 manat olmaqla, əsas kapitala yönəldilmiş investisiyanın 97,4 faizini təşkil edib. Bəhs olunan dövrdə tikinti-quruculuq işlərinin həcmi ilə yanaşı, coğrafiyası da genişləndirilib, müxtəlif ünvanlarda kənd və xidmət mərkəzləri, məktəb binaları, həkim ambulatoriyaları istifadəyə verilib, bəzilərində quruculuq tədbirləri davam etdirilməkdədir.

Yaxın günlərdə rayonun Aşağı Əndəmic kəndi də müasirliyə qovuşmuş yaşayış məntəqələri sırasına qoşulacaq. Rayon mərkəzinə çox yaxın, cəmi 5 kilometr məsafədə yerləşən Aşağı Əndəmicdə 252 şagird yerlik məktəb binası əsaslı surətdə yenidən qurulur, kənd və xidmət mərkəzləri inşa olunur, Ordubad-Aşağı Əndəmic avtomobil yolu yenidən qurularaq asfaltlaşdırılır, kənddaxili yollar təmir edilir. Bundan başqa, yaşayış məntəqəsinin içməli su xətləri də yenilənir, rabitə, elektrik və qaz xətlərində əsaslı təmir işləri həyata keçirilir.

Yeni məktəb istifadəyə verildikdən sonra işıqlı sinif otaqları, fizika, kimya, biologiya kabinələri, internetə qoşulacaq kompüter və elektron lövhəli otaqlar, hərbi kabinə müasir avadanlıqlarla təmin ediləcək. Məktəb müasir istilik sistemi ilə qızdırılacaq, bədən tərbiyəsi və idman dərslərinin keçirilməsi üçün idman zalı hər cür qurğularla təchiz ediləcək.

Kənd mərkəzində fəaliyyət göstərəcək inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyənin, rabitə və poçt xidmətinin müasir tələblər səviyyəsində fəaliyyət göstərməsi üçün şərait yaradılacaq.

**Abbas SEYİD**

# “Marş İrəli” layihəsi yekunlaşmaq üzrədir



Naxçıvanın ev sahibliyi ilə keçirilən hərbi simulyasiyalı layihə uğurla davam edir. “Marş İrəli”nin 4-cü günü çərçivəsində iştirakçılar Naxçıvan Təlim-Tədris Mərkəzində oldular. Hərbi qulluqçularımız tərəfindən icra olunan atıcı silahlardan, qumbaraatanlardan praktik atış çalışmaları, şəxsi heyətin kəşfiyyat cığırında fəaliyyəti və psixoloji cığırın dəf edilməsi, snayperçilərin döyüş fəaliyyəti izlənilib. Atış sahəsində siqnal minası, od və elektrik üsulu ilə partlayışların həyata keçirilməsi, təlim mühəndis döyüş sursatlarının nümayişi reallaşıb. Tank və top atəşləri, eləcə də helikopter və qırıcı təyyarə uçuşları gənclər tərəfindən xüsusi maraqla izlənilib. Daha sonra iştirakçılar “N” hərbi hissədə Əlahiddə Ümumqoşun Orduya aid hərbi silah və texnikalarla tanış olublar. Raket və artilleriya silah sistemləri, rabitə vasitələrinin və avtomatlaşdırılmış idarəetmə sistemləri, hərbi avtomobil və zirehli texnika nümunələri haqqında ətraflı məlumat verilib, səyyar tibb qrupunun səhra şəraitində nümayişi həyata keçirilib.

Axşam saatlarında Döyüş Şöhrəti Muzeyinə ekskursiya, Türkiyə-Naxçıvan Dostluq Parkında hərbi orkestrin iştirakı ilə konsert proqramı təşkil olunub.

Qeyd edək ki, sabah – layihənin sonuncu günü çərçivəsində “Hərbi parad”, “İnformasiya müharibəsi” təlimi, maneəli qaçış-ipdartma hərbi idman oyunları keçiriləcək. Layihəyə bağlanış mərasimi və konsert proqramı ilə yekun vurulacaq.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# “Marş İrəli” layihəsinin iştirakçıları: “Naxçıvanlı gənclər hər zaman ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəallıqları ilə seçiliblər”

***Xəbər verdiyimiz kimi, sentyabrın 5-də ölkə gənclərində vətənpərvərlik ruhunun yüksəldilməsi, fiziki dözümlülüyün artırılması, rəqabətədavamlı və sağlam gəncliyin inkişafına xidmət edən “Marş İrəli” adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümü Naxçıvan Muxtar Respublikasında start götürüb. Əlahiddə Ümumqoşun Ordunun dəstəyi, Azərbaycan Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Gənclər Fondu və “İrəli” İctimai Birliyinin təşkilatçılığı ilə reallaşdırılan layihənin gündəlik proqramı tərtib olunub, düşərgə üçün əlverişli məkan seçilib. Artıq gənclər muxtar respublikamızın bir sıra gəzməli-görməli, tarixi, dini, mədəni əhəmiyyətli yerləri ilə tanış olub, vətənpərvərlik ruhunun aşılanmasına xidmət edən bir sıra tədbirlər reallaşdırılıb. Layihə təşkilatçıları və iştirakçılarının keçirilən tədbirlərlə bağlı fikirlərini öyrəndik:***

***Şahin Rəhmanlı – “İrəli” İctimai Birliyinin sədri:***



– Gənclərin Vətənə, torpağa, milli-mənəvi dəyərlərə sadiq, hərbi-vətənpərvərlik ruhunda yetişməsinə xüsusi diqqət yetirilməsi dövlət gənclər siyasətinin ana xəttini təşkil edir. “İrəli” İctimai Birliyi olaraq biz də daim ölkə başçısının müəyyənləşdirdiyi bu siyasət istiqamətində fəaliyyətimizi qurmağa çalışırıq və ötən dövr ərzində gənclərin hərtərəfli inkişafına yönələn müxtəlif səpkili layihələr reallaşdırmışıq. Vətənpərvərlik istiqamətində həyata keçirdiyimiz layihələr sırasında 2018-ci ildən start götürən “Marş İrəli” layihəsi xüsusilə seçilir. Layihə, əsasən, ön xətdə yerləşən bölmələrdə keçirilir. İlk olaraq Ağdam rayonunda həyata keçirmişik. O zaman rayonun əksər hissəsi işğal altındaydı. Ancaq müzəffər Ordumuzun qüdrəti nəticəsində artıq Qarabağımız azadlığına qovuşduğundan gələcəkdə həmin ata-baba torpaqlarımızda da “Marş İrəli” layihəsini uğurla reallaşdıra biləcəyik. Bu məqamda, xüsusilə qeyd etmək yerinə düşər ki, mən özüm də daxil olmaqla, layihədə iştirak edən 18 gəncimiz ötən il 44 günlük Vətən müharibəsində könüllü iştirak edərək torpaqlarımızın azadlığı uğrunda vuruşub və nəticədə, həmin oğullar ölkə başçısının müvafiq sərəncamları ilə medallarla təltif olunublar. Mən də Cəbrayılın və Füzulinin azad olunmasına görə medallara layiq görülmüşəm. Məhz bu amil “Marş İrəli”nin effektivliyinin bariz göstəricisi kimi layihənin mühümlüyünü ortaya qoydu. Qalib ölkənin gəncləri kimi 3-cü layihəni Göygöldə keçirdik və nəhayət, 4-cü “Marş İrəli” Naxçıvanda baş tutur. Naxçıvanlı gənclər hər zaman ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında xüsusi fəallıqları ilə seçiliblər. Bu baxımdan növbəti layihənin burada reallaşdırılması heç də təsadüfi deyildir.



Onu da qeyd edim ki, əvvəllər bir neçə dəfə layihələr, tədbirlər üçün muxtar respublikaya gəlmişdim, ancaq hər dəfə səfərim qış aylarına düşürdü. Sevinirəm ki, budəfəki gəlişimiz yay mövsümünə təsadüf etdi və Naxçıvanın ilin bu vədəsindəki görünüşünü, gözəlliyini görə, duya bildim. Belə ki, layihə çərçivəsində gənclərin mənəvi-psixoloji hazırlığı, vətənpərvər ruhunun yüksəldilməsinə yönələn tədbirlər keçirməklə yanaşı, asudə vaxtının da səmərəli təşkili üçün muxtar respublikanın bir sıra gəzməli-görməli yerlərinə getdik. Gözəlliklər diyarı Batabat yaylağında, möcüzələr məkanı Əshabi-Kəhfdə olduq, Naxçıvan şəhərinin tarixi-mədəni abidələrini ziyarət etdik, bu qədim diyarın təmiz, saf dağ havasından, büllur bulaqlarının suyundan daddıq. İstər bu yurdun tarixi, mənəvi zənginliyindən, istərsə də insanlarının səmimi, mehriban münasibətindən çox məmnun qaldıq. Bir neçə gün ərzində keçirilən müxtəlif hərbi idman oyunlarında, təlimlərdə, praktik sessiyalarda, yarışlarda naxçıvanlı gənclərin aktivliyini müşahidə etdim. Deyərəm ki, gözlədiyimizdən də üstün şəkildə öz bilik və bacarıqlarını göstərdilər. Layihənin keçirilməsi üçün yaradılan şərait isə lap ürəyimizcə oldu və bütün bunlara görə təşkilatçılara minnətdarlıq edirəm.



***İlahə Haqverdiyeva – Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri:*** – “Marş İrəli” layihəsinin təşkilatçılarından biri olaraq bu tədbirə xüsusi hazırlaşmışdıq. İlk olaraq iştirak üçün link vasitəsilə 200-ə yaxın naxçıvanlı gənc qeydiyyatdan keçdi və həmin gənclər arasında seçimlər aparıldı. Sonra isə onlar müsahibə mərhələsinə dəvət olundular ki, bu mərhələdə sağlamlıqları, ekstremal şəraitdə yaşamaqları ilə bağlı verilən sualları dolğun cavablandıranlar seçildi. Beləliklə, 70-ə yaxın naxçıvanlı gənc layihədə iştirak üçün şans qazandı. Artıq bir neçə gün ərzində gənclərimiz öz aktivlikləri, fəallıqları, vətənpərvərlikləri ilə seçildi. Bildiyimiz kimi, bu tədbirlərdə ölkəmizin digər yerlərindən də gənclər iştirak edir və onların bir-birinə qaynayıb-qarışması, komanda şəklində fəaliyyətləri təqdirəlayiqdir. Keçirilən təlimlərdə, yarışlarda birlik, bərabərlik amili özünü bariz şəkildə göstərdi.



Onu da qeyd edim ki, layihə çərçivəsində gənclər müxtəlif hərbi hissələrə gedərək Əlahiddə Ümumqoşun Ordunun arsenalında yer alan müxtəlif texnika və silah-sursatlarla, hərbçilərimizin yaşam tərzi ilə yaxından tanış oldular. Bu müddətdə gənclərimizin asudə vaxtı da nəzərdən qaçırılmadı, demək olar ki, hər gün onlar üçün konsert proqramları, əyləncəli oyunlar təşkil edildi. Gənclərin Vətən müharibəsində iştirak etmiş döyüşçülərlə keçirilən görüşünü də xüsusi vurğulamaq istərdim. Döyüşçülərimiz layihə iştirakçılarının təəssüratlarını bölüşdülər, sualları dolğun şəkildə cavablandırdılar, onların döyüş yolları ilə yaxından tanışlıq oldu ki, bu da gənclərimizin vətənpərvərlik ruhunda tam köklənməsinə imkan verdi. Bundan əlavə, gənclər ön xətdə hərbi xidmət üçün yaradılan şəraitlə, hərbçilərimizdə olan böyük ruh yüksəkliyi, döyüş əzmi və iradəsi ilə əyani şəkildə tanış oldular, Vətənimizin necə ayıq-sayıq müdafiə olunmasını öz gözləri ilə gördülər. Fikrimcə, bu layihə naxçıvanlı gənclərin də hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsində mühüm rol oynayacaq, gələcəkdə bu istiqamətdə tədbirlərin daha tez-tez keçirilməsi məqsədəuyğundur.

“Artıq yavaş-yavaş təlimin sonlarına çatdığımız üçün çox təəssüflənirəm”, – deyir, müsahibimiz ***Ebrin Bəhmənova*** qeyd edir ki, burada keçirdiyim və hafizəmdə həmişə şirin xatirə kimi qalacaq günlər üçün çox darıxacağam. Həqiqətən də Naxçıvan möcüzələr diyarıdır. Düzdür, hər bir kəsə öz doğulduğu, boya-başa çatdığı torpağı əzizdir. Amma həqiqət də göz qarşısındadır ki, Naxçıvanın abhavası tam başqa cürdür. Hazırda Bakıda olan dostlarımla asudə vaxtlarımda telefonla danışıram. Məndən günümün necə keçdiyini, təlimin maraqlı olub-olmadığını soruşurlar. İnanırsınızmı? Hər dəfə söhbətimizin yekununda təlimin bir də nə vaxt keçiriləcəyini soruşurlar. Çünki düşərgə ilə bağlı bölüşdüyüm xatirələrim onlarda böyük marağa səbəb olub. Layihə üçün nəzərdə tutulmuş proqram çərçivəsində bir çox gəzib-görməli yerlərə ekskursiyalar etdik. Mənim ən çox diqqətimi çəkən isə Əshabi-Kəhf ziyarətgahı oldu. Buranın adını çox eşitmişəm. Hər dəfə gəlib görmək istəmişəm. Sən demə, qismət bu günə imiş. Bununla yanaşı, naxçıvanlı yoldaşlarımdan öyrəndim ki, Möminə xatın, Yusif Küseyir oğlu, Fəzlullah Nəimi kimi şəxsiyyətlərin abidələri də məhz burada, Naxçıvanda yerləşir. Bu abidələr bir-birindən gözəl və maraqlıdır. Onların qorunub saxlanılması böyük vətənpərvərliyin, tarixə bağlılığın, öz soykökünə dərin ehtiramın və sevginin nişanəsidir. Bir sözlə, şəhərin hər tərəfində hökm sürən abadlıq, sakitlik və təmizlik insanı heyran edir. Təlimə gəldikdə isə buranın mühiti, insanların qonaqpərvərliyi onların səmimi mədəniyyətindən xəbər verir. Layihə çərçivəsində bizlərə göstərilən diqqət, səmimiyyət, həqiqətən, yüksək səviyyədədir. İnanıram ki, bu tədbirlərin davamlı xarakter alması gənclərdə vətənpərvərlik ruhunun formalaşmasında böyük rol oynayaraq, onlara həm də ruh yüksəkliyi aşılayacaq.

Bakı Dövlət Universitetinin tələbəsi ***Nərmin Nadirova*** da təlimdə iştirak edən fəal gənclərdəndir. Müsahibim deyir: Hər bir gəncin mənəvi borcudur ki, hərb sənətinin sirlərinə yiyələnsin, onun necə şərəfli bir sahə olduğunun məsuliyyətini dərk edə bilsin. Bu gün biz burada olduğumuz müddətdə tam dərk etdik ki, Vətənin keşiyində dayanmaq necə çətin və qayğılı bir işdir. Hər an bu yolda ayıq-sayıq olmalısan... Kaş ki bu təlimdə bir az da artıq iştirak edə bilərdik. Komando təlimləri, qrup məşqləri fiziki güc, dözümlülük tələb etdiyi üçün bəzən yorulsaq da, olduqca maraqlı idi. Bir məqamı da diqqətə çatdırım ki, burada qruplararası keçirilən təlimlərdə şiddətli rəqabətin də şahidi oldum. Sanki hər kəs öz gücünü, qabiliyyətini nümayiş etdirməyə çalışır, birincilik qazanmaq yolunda səy göstərir. Elə mən də bu rəqabətdə birincilik qazanmaq istəyən gənclərin dəstəsindəyəm. Ən sevdiyim məşqlər isə fiziki tərbiyə yönündə təşkil edilən məşqlərdir. Bununla yanaşı, təlimdə həm də müxtəlif silah-sursatların yığılma qaydaları, onların istifadə üsullarının incəliklərini də öyrənirik. Kim deyir ki, hərb sənətinin öhdəsindən qadınlar gələ bilməz? Bu gün əgər hər hansısa bir səbəbdən zərurət yaranarsa, Vətənimin keşiyində inamla, dözümlə dayanmağa hazıram. Çünki Vətən dara düşəndə onun qeyrətli övladları dadına çatar, yolunda can qoyar, qan tökər, amma bir ovuc torpağını belə, düşmənə verməz. Bu gün bütün Azərbaycan xalqının övladları 44 günlük Vətən müharibəsində öz sözünü dedi. Düşmən dəmir yumruğun zərbəsi altında əzilməklə, illərdir, qəlbi intiqam alovu ilə yanan oğulların nəfəsində yanmaqla öz murdar xislətini məğlubiyyətlə ödədi və bundan sonra da ödəyəcək. Nə qədər ki canımızda can var, dövlətimizin



bizə göstərdiyi diqqət var, bizlər daha böyük uğurların, necə deyərlər, fatehinə çevriləcəyik. Buna hər kəs bütün varlığı ilə inanır.

“Bütün bu böyük amallara hesablanmış məqsədli addımlar gənclərə göstərilən diqqətin, inamın bariz nümunəsidir”, – deyən ***Nicat Hüseynli*** bildirdi ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün öz layiqli töhfəsini verməkdədir. Mən düşünürəm ki, dövlətimizin biz gənclərə inamı olmasa idi bu cür gözəl layihələrin təşkili heç bir vaxt baş tuta bilməzdi. Sözügedən inamın nəticəsidir ki, artıq hər bir Azərbaycan gənci müxtəlif sahələrdə öz qabiliyyəti ilə göstərilən etimadları doğrulda bilir. Bu mənada, biz gənclərin əsl vətənpərvərlik məfkurəsi yolunda layiqli şəxsiyyət kimi formalaşmasında bu layihələrin təşkil olunmasının müsbət rolu var. Bunun üçün mən bütün təlim iştirakçıları adından dövlətimizə, hər bir gəncə əsl valideyn münasibəti bəsləyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm. Bu təlimin öyrətdikləri haqqında çox danışmaq olar. Qrup daxilindəki isti və səmimi münasibətlər, rəhbərlərin bizlərə göstərdiyi etimad, bunun kimi bir çox bu tədbirlərə bir daha qatılmağımıza səbəb yaradan bir neçə gözəl, müsbət hadisələr. Təbii ki, burada bir çox təlimlər, oyunlar keçirilir. Və hər bir kəsə maraqlı gələn bir sahəsi olur. Elə məndə də, bu mənada, ən çox maraqdoğuran Vətən müharibəsi iştirakçıları ilə baş tutan görüşümüz oldu. Onları dinlədikcə insanın qəlbindəki Vətən, torpaq sevgisi daha da pərvazlanır sanki. Düşünürəm ki, digər təlim iştirakçıları olan yoldaşlarımızın da timsalından bunu duymaq çətin olmurdu. Müharibə iştirakçıları döyüş xatirələrindən yola çıxaraq, şahid olduqları xatirələrə söykənərək bizim suallarımızı cavablandırdılar. Onlar həm də bizim gələcək ideallarımızdır. Mən də bir Azərbaycan gənci olaraq qəhrəmanlarımızla daim fəxr edir, Vətənimə, xalqıma, millətimə layiqli şəxsiyyət olacağıma söz verirəm.

**Nail ƏSGƏROV**
**Məcid RƏŞADƏTOĞLU**

# Naxçıvan dünən

## Göz dəyməsin bu məktəbə

Respublikanın əvvəlki rəhbərləri məktəblərin kompüterləşdirilməsi barədə ağızdolusu danışanda onların yerinə mən xəcalət çəkirdim. Soruşa bilərsiniz ki, niyə, nəyə görə, məgər kompüterləşmə pisdir? Xeyr, heç kəs onun əleyhinə ola bilməz. İnkişaf etmiş xarici ölkələrdə də bu sistem geniş yayılıb. Deyə bilərsiniz ki, bəs onda xəcalətli olmağınızın səbəbi nədir? Əgər yolunuz Babək rayonunun Məzrə kəndindəki səkkizillik məktəbə düşsə, onda şahid olarsınız ki, bu və bunun kimi təhsil ocaqlarında kompüterləşmədən danışmaq ağlasığmaz bir işdir. Soruşa bilərsiniz ki, yəqin məktəbin pedaqoji kollektivi pis işləyir? Xeyr, belə deyil. İnsaf naminə deyək


Məzrə kənd tam orta məktəbi dünən

ki, müəllimlər zəhmətkeş balalarının təlim-tərbiyəsinə qayğı ilə yanaşırlar...

...Sinif otaqlarına baxdıqca adamın ürəyi ağrıyır. Adam təsəvvür edə bilmir ki, burada necə təhsil almaq olar. Qapı-pəncərələr sınıq-salxaqdır. Külək əsəndə sinifdə “yel vurur, yelləncək oynayır”, üstəlik, siniflər çox darısqaldır. Özü də bir-birinin içində, xüsusilə qış aylarında uşaqların qırışığı açılmır. Xəstələnməmək üçün şagirdlər isti paltarlarını çıxarmadan sinifdə otururlar. Kömür peçi yansa da, qapı-pəncərələri yararsız olan sinif otaqlarını qızdırmır. Partalara baxanda adam xəcalət çəkir. Düşünürsən ki, görəsən, rayon xalq təhsil şöbəsinin rəhbərlərinin bu məktəbə yolları düşmür? Əgər düşsə belə, belə vəziyyətlə necə razılaşırlar? Adamların taleyinə belə laqeydlik olar?..

...Tutaq ki, yuxarı sinif şagirdlərinə dedik ki, siniflərdə asta gəzin, toz olmasın. Bəs kiçik yaşlıları necə başa salaq? Bir sözlə, dözülməz şəraitdə işləyirik. Siniflərdə elektrik xətləri nasazdır, hətta bəzi yerlərdə xətlərin üstü açıqdır, axı körpə uşaq olan yerdə belə hallara yol vermək olmaz. Nəinki siniflərdə, hətta müəllimlər otağında da bunun şahidi olduq...

*“Şərq qapısı” qəzeti*
*21 dekabr 1990-cı il*

# və bu gün

## His qoxulu otaqlardan kompüterli, elektron lövhəli siniflərə...


Məzrə kənd tam orta məktəbi bu gün

***Böyük Azərbaycan maarifçisi Məhəmməd Tağı Sidqinin “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan “Məktəb hekayələri” kitabında qeyd olunur ki, məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ki, həmişə cahilləri alim, divanələri aqil eylər. İllərcə məktəbə gedib tərbiyə və ədəb kəsb etməyən kimsələr, məktəbdə ömür keçirib elmlərdən və fənlərdən bəhrəmənd olmayan şagirdlər rəngarəng güllər və çiçəklər ilə dolu bir bağçada gəzib dolanan kora bənzərlər.***

“Nümunəvi təhsil ocağı necə olmalıdır?” sualına müfəssəl cavab tapdığımız bu fəlsəfi fikirlərlə “Şərq qapısı” qəzetinin 21 dekabr 1990-cı il tarixli sayında dərc edilən “Göz dəyməsin bu məktəbə” sərlövhəli yazıdakı bir məktəbin acınacaqlı vəziyyətini, ürəkağrıdan mənzərələrini göz önünə gətirdikdə təzadlıq bütün açıqlığı ilə özünü büruzə verir. Bəli, çox təəssüf ki, ötən əsrin 90-cı illərində məktəbə üz tutan uşaqlar mərifət bağının xiyabanı ilə deyil, tozlu-torpaqlı döşəməsi, hisə bürünən tavanı, sınıq-salxaq pəncərəsi, cızıq-qırıq partaları və sadalamaqla bitməyən digər “üstün keyfiyyətləri” ilə diqqətçəkən bir ünvanla qarşılaşmalı olurdular. Nəzərə alsaq ki, haqqında bəhs edilən Babək rayonun Məzrə kəndi Naxçıvan şəhərindən 10-15 kilometr aralıda yerləşir, o zaman ucqar dağ kəndlərindəki məktəblərin o dövrkü vəziyyətini dilə gətirməsək yaxşıdır. Ürək sıxan hallardan biri də o illərdə nə müəllimlərin, nə də şagirdlərin nümunə kimi yanaşdığı, “kaş bir gün bizim də belə gözəl məktəbimiz olsun”, – deyə biləcəkləri təhsil ocağı yox idi. Müasirləşməni, yeniləşməni xəyallarda belə, canlandırmaq mümkünsüz gəlirdi insanlara. Sovet dövrünün son dönəmlərində daha da güclənən anti-Azərbaycan siyasəti mərəz şəklində yayılaraq beyinlərə, şüurlara da dərindən nüfuz edir, insanların taleyinə, düşdükləri naəlac vəziyyətə bilərəkdən, məqsədli şəkildə göz yumulması, azərbaycanlı balalarını təhsildən uzaq salmağa yönələn, gələcəklərini uçuruma aparan hallara qarşı laqeydlik daha pis nəticələrə doğru yol alırdı. Lakin ümummilli liderimiz Heydər Əliyev muxtar respublikada yaşadığı, Ali Məclisin Sədri vəzifəsində çalışdığı dövrdə, ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bu naqisliklərin tez bir zamanda qarşısını aldı, bütün sahələrdə baş verən durğunluq prosesləri sona yetdi, hazırlanan konsepsiyalara uyğun təhsil də öz inkişaf mərhələsinə qədəm qoydu. Muxtar respublikamızda da Ali Məclisin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə ulu öndərin siyasi xəttinin əsaslanan, dəyişən dövrün tələblərinə uyğun məqsədyönlü təhsil quruculuğunun həyata keçirilməsinə başlanıldı. Atılan mütərəqqi addımlardan biri isə məhz bu prosesin ilk olaraq ucqarları, coğrafi vəziyyəti, həyat şəraiti insanların yaşayışına çətinlik yaradan bölgələri əhatə etməsi oldu. Qısa bir zamanda reallaşdırılan inşaat işləri, yeniləşən məktəblər ölkəmizin gələcəyi sayılan uşaqların bilik dünyasına yenilik, gözəllik gətirdi, işıqlaşan sinif otaqları orada dərs keçən müəllimlərin, öyrənən şagirdlərin həyat yolunu da aydınlatdı. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, təhsildə gedən yeniləşmə proseslərinin zamanı necə qabaqladığının şahidi olaq. Belə ki, müstəqillik illəri ərzində muxtar respublikada 200-dən çox ümumtəhsil məktəbi yenidən qurulub. Təqdirəlayiq hallardan biri də bütün sahələrdə olduğu kimi, təhsildə də quruculuğun kompleks şəkildə reallaşdırılmasıdır. Belə ki, görülən işlər təkcə bina tikintisi ilə yekunlaşmayıb, ən yeni avadanlıqların tədris prosesinə cəlbini də əhatə edib, zamanla ayaqlaşan geniş islahatlar aparılıb, innovativ təlim metodlarına keçilib. Vahid məktəbli geyim formasının tətbiqi, şagirdlərin pulsuz kitablarla təmin edilməsi, sosial qayğıya ehtiyacı olanlara məktəbli geyimləri və dərs ləvazimatlarının verilməsi sosial ədalətin qorunmasına, bərabər təhsil hüquqlarının formalaşmasına imkanlar açıb. Texnoloji yeniliklərə rəqəmlərin dili ilə nəzər salaq: 2019-2020-ci tədris ilinin əvvəlinə muxtar respublikanın ümumtəhsil məktəblərində 5700-dən çox kompüter quraşdırılıb, hər 9 şagird bir dəst kompüterlə təmin olunub, istifadədə olan kompüterlər internetə qoşulub. Halbuki 1995-1996-cı tədris ilində ümumtəhsil məktəblərində 20 dəst kompüter quraşdırılmış, hər 4050 şagird bir dəst kompüterlə təmin edilmişdi. İnformasiya mühitinin yaradılması məqsədilə ümumtəhsil məktəblərində 650-dən çox elektron lövhə quraşdırılıb.

Göründüyü kimi, bir vaxtlar şagirdlər təsəvvürlərində belə, canlandıra bilmədikləri texnologiya indi onlara bir addım qədər yaxınlaşıb, hər gün bu tədris vasitələrindən istifadə etməklə biliklərini daha da artırır, internetə çıxışı olan kompüterlə dünyanın istənilən nöqtəsi ilə əlaqə saxlayır, operativ şəkildə lazımi məlumatları öyrənir, laboratoriyalarda praktik vərdişlərə yiyələnmə imkanları qazanırlar. Xalqın, millətin gələcəyinin bilavasitə asılı olduğu təhsil sahəsində böyük işlər görülməsinin, bütün bu və digər üstünlükləri yaratmaqda dövlətin bir məqsədi vardır: savadlı, dünyagörüşlü gənclər yetişib Vətənimizin, dövlətimizin sağlam gələcəyini, işıqlı sabahını təmin etsin. Hər il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında, ilboyu təşkil olunan fənn olimpiadalarında, ölkə və beynəlxalq səviyyəli bilik yarışlarında, müsabiqələrdə qazanılan nailiyyətlər, reallaşan yeni startap layihələri sözlə əməlin vəhdətindən doğan işlərin hədər yerə olmadığını sübut edir...

Tarix səhifələrini vərəqləyəndə görürük ki, öz soykökündən, keçmişindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, həyat səhnəsindən silinmək təhlükəsi ilə üzləşiblər. Məhz bu baxımdan gələcəyinə inamla baxdığımız uşaqların milli dəyərlərimiz ruhunda təlim-tərbiyəsi, təhsili olduqca vacib amil kimi qarşıda durur. Təbii ki, tarixi keçmişimizin, mədəniyyətimizin öyrədilməsi ilə paralel uşaqların dünyaya, bəşəri elmlərə inteqrasiyasında, intellektual, bilikli, bacarıqlı gənc nəslin yetişməsində mütərəqqi tədris metodlarının tədbiqi də olduqca mühümdür. Ölkəmizdə bu prizmalar əsasında həyata keçirilən təhsil siyasətinə uyğun olaraq muxtar respublikada 2006-2007-ci tədris ilindən etibarən təlimin məzmununu, strategiyalarını, qiymətləndirmə mexanizmlərini özündə ehtiva edən konseptual xarakter daşıyan kurikulum təlim metoduna keçilib. Bu təhsil sistemi nəzəri biliklər və təcrübi vərdişlərin qarşılıqlı surətdə inkişafına əsaslanaraq şagirdləri fəallığa səsləyir, məktəblinin bacarığını, qabiliyyətini daha da möhkəmləndirməklə yanaşı, müəllimlərin də pedaqoji səviyyəsinin, dünyagörüşünün dövrün tələblərinə uyğun təkmilləşdirilməsini şərtləndirir. Bütün bu amillər də nəzərə alınaraq hər il mütəmadi olaraq təhsil müəssisələrində tədrisin səviyyəsinin yüksəldilməsi, pedaqoji heyətin peşəkarlıq meyarının, tədris prosesinə cəlb olunan texnologiyaların, laboratoriyaların imkanlarından istifadə bacarıqlarının artırılması üçün seminarlar, treninqlər, kurslar təşkil olunur. Reallaşdırılan bu tədbirlərin müsbət tərəfi ondadır ki, müəllimlər onları maraqlandıran, ehtiyac duyduqları, lazım olan məsələlərə dair ətraflı şəkildə məlumatlar alır, sərbəst şəkildə verilən suallar, müzakirələr, dialoqlar pedaqoqların nəzəri və praktik təcrübələrinin yüksəldilməsində mühüm rol oynayır ki, bu da, ümumilikdə, təhsilin dayanıqlı inkişafına, şagirdlərin intellektual səviyyəli gənc kimi yetişməsinə xidmət edir. Görülən bu və digər tədbirlər həm də zaman-zaman muxtar respublika müəllimlərinin, şagirdlərin ölkə və beynəlxalq səviyyəli qrant müsabiqələrdə uğurlar qazanması ilə nəticələnir.








Muxtar respublikamızda müasir dövrün tələblərinə uyğun, tarixə, milli köklərə bağlı, yüksək dünyagörüşlü şagirdlərin hazırlanması məsələsinə toxunduqda bu sahədə qəbul olunan Dövlət proqramlarının, icra olunan layihələrin, xüsusilə də Ali Məclis Sədrinin müvafiq sərəncamlarından irəli gələn vəzifələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulamaq lazımdır. Belə ki, “Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” imzalanan Sərəncama uyğun olaraq 2015-ci ildən etibarən hər pedaqoq-alimin ayda bir dəfə nümunəvi dərs keçməsi elmi dərəcəsi olan müəllimlərlə orta təhsil müəssisələri arasındakı əlaqələri gücləndirir, eyni zamanda şagirdlərdə tədris olunacaq fənlərə yeni yanaşma tərzi aşılamaqla onların gələcək peşə seçimlərində düzgün qərar vermələrinə müsbət təsir göstərir. Bu təqdirəlayiq addımın üstün cəhətlərindən biri də müxtəlif ixtisaslar üzrə elmi dərəcəyə malik kadrların məhz vaxtilə təhsil aldıqları, məzunu olduqları ümumtəhsil məktəblərində tədrisə cəlb edilmələridir ki, bu hal müəllim-şagird kontingentində doğmalıq hissinin, tədris mühitində yeni ab-havanın yaranmasına yol açır. Beləliklə də müəllim özünün də oxuduğu məktəbin dünəni, keçdiyi inkişaf yolu, yetirmələri barədə şagirdlərə məlumat verməklə onlarda təhsilə böyük maraq yaradır, uşaqları dərsləri dərindən mənimsəmələrinə, öz biliklərini zənginləşdirmələrinə həvəsləndirir və son nəticədə, tədris prosesində canlanma baş verir ki, bu da ümumi inkişafa lazımi töhfədir. Ali Məclis Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı isə orta məktəb ilə elm, mədəniyyət müəssisələri arasında əlaqəni daha da gücləndirir, interaktiv təhsilin inkişafına yol açır. Tariximiz, mədəniyyətimiz, adət-ənənələrimiz barədə şagirdlərin əyani şəkildə hərtərəfli öyrənməsinə xidmət edən bu istiqamətdəki tədbirlər onları qloballaşan dünyada pis vərdişlərdən uzaqlaşdırmaqla əqidələrini sağlam düşüncəyə, milli ruha kökləyir. Mövzu ilə bağlı bir faktı da qeyd etmək yerinə düşər ki, başa vurduğumuz 2020-2021-ci tədris ilində də bu istiqamətdə tədbirlər daim diqqətdə saxlanılıb, ümumilikdə, 55 interaktiv, 1955 saat nümunəvi dərs tədris olunub.

Son dövrlərdə muxtar respublikada tətbiq olunan, ümumi təhsil müəssisələrinin IX-XI siniflərində oxuyan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması məqsədilə həyata keçirilən “Sabahın tədqiqatçıları” layihəsi xüsusi əhəmiyyəti ilə diqqəti çəkir. Bu məqsədlə 2020-2021-ci tədris ilində 5 istiqamət üzrə 50 şagird AMEA Naxçıvan Bölməsinin alimlərinin elmi himayəsinə verilib, qısa müddətdə ölkə, eləcə də beynəlxalq səviyyəli müsabiqələrdə iştirak üçün layihələr müəyyənləşdirilib, tədqiqat işlərinə başlanılıb. Ötən ilin dekabr ayında layihə üzrə artıq ilk uğurlar qazanılıb. Belə ki, AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun əməkdaşı kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədovanın rəhbərliyi ilə kimya fənni üzrə Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin XI sinif şagirdi Bəxtiyar İsmayılov və X sinif şagirdi Nurgün Allahverdiyevanın “Yeraltı sular təbiətin möcüzəsidir”, Naxçıvan Qızlar Liseyinin X sinif şagirdi Nuray Məmmədovanın və Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin IX sinif şagirdi Zahidə Allahverdiyevanın isə “Naxçıvan Muxtar Respublikası ərazisindəki bəzi mineral suların Kurlov formulunun təyini” mövzularındakı layihələri “Rusiya Pedaqoqları” Ümumrusiya Təhsil Portalı tərəfindən keçirilən “Uşaqların və gənclərin yaradıcılıq və intellekt Beynəlxalq müsabiqəsi”ndə I yerə layiq görülüb.

Dünyada gedən sürətli elmi-texniki tərəqqi şagirdləri yeni istiqamətlər üzrə bilik və bacarıqlarını təkmilləşdirməyə, mütəşəkkil düşüncəni inkişaf etdirməyə sövq edir. Məhz dövrün bu xarakterik amilləri əldə edilmiş biliklərin layihə təlimi vasitəsilə elm, texnologiya, mühəndislik, riyaziyyat və incəsənət kimi sahələrin səmərəli praktik tətbiqinə nail olmaq məqsədi daşıyan STEAM təlim metodunun tətbiqinin vacibliyini ortaya çıxarıb. Ali Məclis Sədrinin tapşırığı ilə 2020-2021-ci tədris ilindən etibarən muxtar respublikanın bir sıra ümumtəhsil məktəblərində tətbiq olunan bu metod üzrə dərsləri tədris etmək, təbii ki, ilk növbədə, müəllimlərdən üstün bacarıq, qabiliyyət tələb edir. Bu məqsədlə ötən dövrdə bir sıra işlər görülüb, müəllimlər təlimə cəlb olunub qısa müddət ərzində 53 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb, STEAM təhsili ilə bağlı nəşrlər hazırlanıb. Əhəmiyyəti nəzərə alınaraq 2021-ci il 7 iyun tarixdə Naxçıvan Muxtar Respublikası

Ardı 4-cü səhifədə

Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb, bu istiqamətdə zəruri tədbirlər davam etdirilir. Hazırda 50 ümumtəhsil məktəbində STEAM kabinələrinin yaradılması istiqamətində iş aparılır, yeni tədris ilində həmin ümumtəhsil məktəblərində STEAM kabinələrinin yaradılması başa çatdıqdan sonra, ümumilikdə, 104 təhsil müəssisəsində STEAM təhsilinə cəlb olunmuş şagirdlərin sayı 22 mini keçəcək. Şagirdlərə kommunikasiya, komandada işləmək, kreativ və yaradıcı düşüncəni tətbiq etmək kimi XXI əsr bacarıqları aşılayan, onları yaradıcı öyrənməyə yönəldən bu metodun uğurlu tətbiqi, şübhəsiz, gələcəkdə muxtar respublikamızda innovativ düşüncəli gəncliyin formalaşmasına, elmi-texniki yeniliklərin istehsalata böyük mənada sirayətinə geniş imkanlar açacaq.





Bildiyimiz kimi, müasir dövrdə bütün sahələrdə təbliğat ən önəmli amillərdən biridir ki, bu istiqamətdə televiziya və radiolar, mətbuat, sosial şəbəkələr həlledici rol oynayır. Məhz bu baxımdan Ali Məclis Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə Televiziya və Radio Verilişləri Redaksiyasının Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilməsi muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin edərək sistemli maarifçilik işinin aparılması məqsədi daşımaqla gələcəyə yönələn mütərəqqi addımdır. Redaksiya müxtəlif maarifləndirici verilişlərin yayımını həyata keçirməklə gənc nəslin vətənpərvərlik, eləcə də tarixi-mədəni irsimizə və milli dəyərlərimizə sədaqət ruhunda tərbiyəsində, onların intellektual və fiziki inkişafı, sadə əmək vərdişlərinə yiyələnməsində, istedadlarının üzə çıxarılmasında əhəmiyyətli rol oynayır.

*Məşhur bir aforizmdə deyilir ki, tarixə düşmək özü də uğur hesab edilir, amma ən böyük uğur tarixin qatarında bu günə gəlib çatmaq və gələcəyə getməkdir. Muxtar respublikada bütün sahələrlə yanaşı, ümumi təhsilin 1990-cı illərdən indiyədək qısa zamanda keçdiyi uzun yola nəzər salanda, dünənlə bu günü müqayisə edəndə artan yüksəlişin, qazanılan uğurların, nailiyyətlərin timsalında bu hikmətli ifadələrin məğzi açılır. Görülən işlərin, atılan mütərəqqi addımların mahiyyətinə dərindən vardıqda tarixin inamla irəliləyən qatarından sağlam, nurlu gələcəyimizin üfüqləri görünür...*

✍ **Nail ƏSGƏROV**

---



## Onlar dövlətimiz, xalqımız üçün fəxr, qürur mənbəyidirlər

***Taleyini zabit peşəsinə bağlayanların qayğısına qalır, təhsili və inkişafı üçün çalışır, vətənpərvər, Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə sədaqətli, yüksək hərbi bilikli zabit-müəllim heyəti gələcəyin Naxçıvanskilərini yetişdirir Heydər Əliyev adına Hərbi Lisey... Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı və müdafiə nazirinin 9 aprel 1998-ci il tarixli əmri ilə 1998-ci ildə müstəqil ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biri kimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı açıldı. Ötən dövrdə hərbi məktəb Prezident cənab İlham Əliyevin qayğısı ilə böyük inkişaf yolu keçmiş, 2004-cü il 27 fevral tarixli Sərəncamla Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilmiş və onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. Cəmi 56 kursantla fəaliyyətə başlayan liseyin 3 mindən artıq məzunu olmuş, onlardan 2 minə yaxını Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edir.***



Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətinin hər iki dövründə ölkəmizdə ordu quruculuğu sahəsini ən vacib prioritet istiqamətlərdən biri kimi daim diqqət mərkəzində saxlamışdır. Ulu öndərimiz hələ 2002-ci il iyunun 17-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşündə demişdir: ***“Mən sizin yanınıza gəlmişəm, sizinlə görüşürəm, gənc Azərbaycan övladlarına baxıram, çox sevinirəm. Çünki indi Azərbaycanın Prezidenti olaraq mən hələ 30 il bundan öncə müstəqillik haqqında, – bəlkə də bunu çox az adam düşünə bilərdi, yaxud ağlına gətirə bilərdi, – düşünüb hərbi məktəb yaratmışdım. Artıq bir neçə ildir, Naxçıvan filialı yaranıbdır…Təsadüfi deyil ki, 30 il bundan öncə həmin məktəbi yaradarkən mən təklif etdim ki, ona Cəmşid Naxçıvanskinin adını qoyaq. Onun həyatı sizə məlumdur. Ancaq faciəli 1938-ci ildə, Moskvada böyük hərbi vəzifədə olduğu zaman həbs olunub güllələnibdir. Ancaq onun gözəl xatirəsi Azərbaycan xalqının qəlbində yaşayıb və o zaman gəlibdir ki, onun adına belə məktəb yaranıbdır… Beləliklə, mən bu gün böyük sevinc hissi ilə deyə bilərəm ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yüksək səviyyədədir, bundan sonra səviyyəsini daha da yüksəldəcək və Azərbaycanın Milli Ordusu üçün, gələcək üçün yeni-yeni kadrlar hazırlayacaqdır...”*** Uzaqgörən liderimiz Heydər Əliyevin Azərbaycanımızın ayrılmaz hissəsi olan Naxçıvan haqqında arzuları, planları Vətəninə, millətinə, xalqına sədaqətli olan, ümummilli liderimizin ideyalarını daim öz işində rəhbər tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən yerinə yetirilir. “Şərq qapısı” qəzetinin 1996-cı il 4 sentyabr nömrəsində dərc olunan məqalədə Cəhridə 504 yerlik yeni məktəb binasının açılışında iştirak edən Ali Məclis Sədrinin çıxışındakı bu fikirləri oxuyuruq: ***“Mən muxtar respublikaya rəhbərliyə başlayarkən öz çıxışımda demişəm ki, Azərbaycanın bu ağır dövründə iki sahəyə diqqəti yönəltmək lazımdır. Orduya və təhsilə. Bu iki sahəni daim diqqət mərkəzində saxlayırıq. Belə olmasa, bizim gələcəyimiz şübhə altında qalar...”*** Muxtar respublika rəhbərinin o vaxtdan bu günədək ordu quruculuğu, ordunun təkmilləşdirilməsi, inkişafı sahəsinə, ixtisaslı hərbçi kadrların hazırlanması işinə göstərdiyi diqqət, Heydər Əliyev adına Hərbi Liseyin buraxılış mərasimlərində mütəmadi iştirakı bu sahədə böyük uğur və müvəffəqiyyətlərin qazanılmasına əlverişli şərait yaratmışdır.

Bu gün Heydər Əliyev adına Hərbi Liseyin vətənpərvər kursantları şərəfli zabit adını doğruldaraq torpaqlarımızın müdafiəsində ayıqsayıq dayanırlar. Odur ki, 2020-ci il 27 sentyabrda başlanan və 44 gün davam edən Vətən müharibəsində qazandığımız böyük tarixi Qələbədə bu liseyin məzunlarının böyük payı olmuşdur. Onlar illərdir, düşmən tapdağı altında qalan torpaqlarımızın işğaldan azad edilməsində, Qələbənin qazanılmasında böyük şücaət və qəhrəmanlıq göstərmiş, şəhid olmuşlar. Öz qanları və canları ilə tarix yazan oğullarımız orden və medallarla təltif olunmuşlar. İkinci Qarabağ müharibəsi bir tərəfdən dövlət-xalq-ordu birliyinin təntənəsi kimi yadda qaldısa, digər bir tərəfdən də əsgər və zabitlərimiz yüksək döyüş bacarığı, vətənpərvərliyi, peşəkarlığı ilə xalqımızın qürur mənbəyinə çevrildilər. Bu həm də onu göstərdi ki, qüdrətli ordunun təməlində təcrübə, bilik, səriştə, eyni zamanda hərbi təhsil dayanır. Bu gün biz fəxr hissi ilə deyirik ki, muxtar respublikamızın hərbi təhsilli gəncləri Azərbaycan Ordusunun sıralarında şərəflə, ləyaqətlə, böyük peşəkarlıqla xidmət edirlər.

Bu gün ulu öndərimizin adını ləyaqətlə daşıyan Hərbi liseydə tədrisin və təlim-tərbiyənin yüksək keyfiyyətini təmin etmək məqsədilə hərtərəfli şərait yaradılıb. Tədris prosesində qabaqcıl metodlar tətbiq edilib, kursantlar il ərzində şəhər və muxtar respublika miqyaslı fənn olimpiadalarında, idman yarışlarında, bədii özfəaliyyət baxış-müsabiqələrində müntəzəm iştirak edərək layiqli yerlər tutublar. Ali Məclis Sədrinin qayğısı ilə liseydə STEAM kabinəsi yaradılıb və müxtəlif avadanlıqlarla təchiz olunub. Kursantlar bu avadanlıqlardan istifadə etməklə 3D modelləşdirmə, mikrobit və arduino ilə işləmə proqramlarına yiyələnir, minaaxtaran qurğu, ağıllı hərbi baza, xətt izləyən və kəşfiyyat robotları, qaz sensoru, elektron tank, su səviyyəsini ölçən qurğuların modellərini hazırlayırlar. Bütün bunlar ali hərbi məktəblərə yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayır. Beləliklə, Hərbi liseyə qəbul olunmaq üçün müraciət edənlərin sayı da ilbəil artır.



Kollektivin uğurlu fəaliyyətinin nəticəsidir ki, liseyin məzunları ali hərbi məktəblərdə təhsillərini uğurla davam etdirir, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında zabit kimi xidmət edirlər. Cari il də lisey üçün uğurla yadda qalıb. Bu il liseyin 124 nəfər məzunu olub. Onlardan 7 nəfəri liseyi fərqlənmə diplomu ilə bitirib. Hazırda liseydə 300-dən artıq kursant təhsil alır. Builki məzunlardan çoxu təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirəcək. Onlardan bir neçəsi haqqında məlumat vermək istərdim:

Elşad Abdullayev 2003-cü ildə Ordubad rayonunun Dəstə kəndində anadan olub. O, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin şagirdləri arasında coğrafiya fənni üzrə keçirilən olimpiadada II yerə layiq görülüb. Liseyin digər bir məzunu Tahir Məhərrəmov Ordubad rayonunun Aza kəndində anadan olub. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin şagirdləri arasında riyaziyyat fənni üzrə keçirilən olimpiadada III yerə layiq görülüb. Nicat Əliyev isə Babək rayonunun Şıxmahmud kəndində anadan olub. Nicat isə fizika fənni üzrə olimpiadada iştirak edərək III yerə layiq görülüb. Onlar təhsillərini yüksək səviyyədə başa vuraraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunublar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“...Liseyin məzunları bundan sonra da təhsili və nizam-intizamı ilə seçilməli, hərb sənətinə dərindən yiyələnməli, mütaliə etməli, yeni texnologiyaları, müasir silahları, hərbi texnikanı mükəmməl mənimsəməli, dünyagörüşlərini daim artırmalıdırlar. Zabit adını daşımaq böyük məsuliyyətdir. Peşə vərdişi, fiziki və nəzəri hazırlığı ilə bərabər, zabit həm də mənəvi keyfiyyətləri ilə seçilməlidir. Tariximizi, dəyərlərimizi və qəhrəmanlıq ənənələrimizi yaxşı öyrənməli, rəhbərlik etdiyi şəxsi heyətin bu əsasda mənəvi-psixoloji hazırlığına nail olmalıdır”.***

Heydər Əliyev adına Hərbi Liseydə yetişən gənclər, heç şübhəsiz ki, həmişə yüksək bilik və hərbi intizamla öndə gedəcək, müzəffər Ordumuzun sıralarında layiqincə xidmət edəcək, Ali Baş Komandanın hər bir əmrinə hazır olacaq, ulu öndərimizin adını daşıyan Hərbi liseyin şərəfini daim uca tutacaqlar. Onlar dövlətimiz, xalqımız, hamımız üçün fəxr, qürur mənbəyidirlər.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

---

***Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinə 2 müasirtipli PHİLİPS-rəngli Doppler aparatı verilib. Aparatların verilməsində məqsəd ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətini daha da yüksəltməkdir.***

## Doğum Mərkəzinə müasir aparatlar verilib



Hollandiya istehsalı olan bu aparat vasitəsilə hamiləliyin izlənilməsi, ginekoloji və süd vəzi xəstəliklərinin aşkar edilməsi mümkündür. Həcmli (üçölçülü) ultrasəs müayinələri həm də hamiləliyin gedişində qüsurların vaxtında aşkar edilməsi və digər müayinələrin düzgün aparılmasına şərait yaradacaq. Doppler USM, təxminən, hamiləliyin istənilən həftəsində tətbiq edilə bilər.

Görüntüləri foto və videoya almaq, DVD diskə yazmaq mümkündür.

Həcmli USM adi müstəvi ultrasəs müayinəsi kimi təhlükəsiz və etibarlı olmaqla yanaşı, diaqnostika baxımından imkanları xeyli artırır. Aparatda birinci görüntü həcmlidir, ikinicisində körpəni tam dəqiqliklə görmək mümkündür. Həmçinin əsas üstünlüklərdən biri də ultrasəs dalğanın skan olunma tezliyi, intensivliyi və gücünün adi müayinədə olduğundan fərqlənməməsidir. Adi ultrasəs müayinə nəticəsində iki müstəvidə – uzunluğu və eni olan yastı görüntü əldə edilir. Körpə üçün zərərli olmayan doppler müayinəsi hazırda Doğum Mərkəzində təcrübəli mütəxəssislər tərəfindən həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Qarxun kəndində yaşamış Əhmədova Məryəm Ələkbər qızına məxsus JN-351B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşayan Nəzakət Kaya Cəbrayıl qızının adına olan JN-481A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

### Bildiriş

“Avtomobil Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

***

“Nəsrin” MMC fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 721